

Səbuhi HACIXANLI

# Bizə ikilikdə düşmədi həyat, Bəlkə ikimizdən birinə düşər.

* * *

Bu sevgi bir üzgün nağıldı, heyhat,
Bəzən ayrılıqlar yerinə düşər.
Bizə ikilikdə düşmədi həyat,
Bəlkə ikimizdən birinə düşər.

Umudan-küsüdən bezəndə ürək
Ən kövrək hisslərin sönən çağında
Bir az ara gərək, məsafə gərək
Duyasan dadını ayrılığın da.

Bəlkə nəfəs verə bu eşqə hicran,
Bu eşq nəfəs kimi gərəyindisə.
Dönəsən geriyə...
geridə qalan
Doğrudan canındı, ürəyindisə.

Mən səni sevmədim unudam deyə,
Sənsiz günlərimi heçə sayıram,
Mən sənə sevgimi yaşadam deyə
Bəlkə də ayrılıq arzulayıram.

## Çəkim

*Rəssam, sevgilimin şəklini gəl çək,*
*Sevgilim gözəldir, sən də gözəl çək.*
*Nazına çatanda fırçadan əl çək*
*Qoy onun nazını mən özüm çəkim.*

**M.Müşfiq**

Gülüm, gül üzünü gülümlə çəkim,
Dodağımla çəkim, dilimlə çəkim,
Mən rəssam deyiləm əlimlə çəkim,
Çəkim gözlərimlə rəsmini sənin.

Tutub sevda adlı tor gözlərimi,
Oynat gözlərimi, yor gözlərimi,
Həsrətin eləsə kor gözlərimi
Çəkim hisslərimlə rəsmini sənin.

Sözüdür şairin canı, nəfəsi
İçinin harayı, qəlbinin səsi.
Sözün nə səddi var, nə çərçivəsi
Çəkim sözlərimlə rəsmini sənin.

* * *

Tələsmə, səbr elə, qarasaçlı qız
Sən də saraldarsan saçını, sən də.
Qara gözlərinin rəngi dəyişməz
Saçını rəngləsən, rəngləməsən də.

Səni özün kimi yaratdı Allah,
Bu da təbiətin özəlliyidir.
Təbii oturmaq, təbii durmaq
Bir qızın ən böyük gözəlliyidir.

Dön bax düməninə, dön bax nənənə
Onun isməti tək ismət olmayıb.
Dünyanı aldatmaq nəinki sənə,
Dünyada heç kəsə qismət olmayıb.

* * *

Şirin bir yuxuymuş eşqimiz bizim,
Açdıq gözümüzü dərbədər oldu.
Özüm də bilmirəm nədən, əzizim
Mənim sədaqətim bu qədər oldu.

Dayanıb üz-üzə, baxıb göz-gözə
Əlvida deməyə gəlmədim sizə.
Baxışlar hər şeyi anlatdı bizə
Dinib-danışmağa söz hədər oldu.

Nədən əhdimizə düz olmamışıq,
Körpə sevgimizə göz olmamışıq.
Sanki o and içən biz olmamışıq,
Hamısı gənclikdən bir xətər oldu.

* * *

Könül sənə saldı o gün ki, meyli
Gecəm ah-zar oldu, günüm gileyli,
Məni Məcnun etdi, səni də Leyli
Düşdü qanımıza bu sevda bizim.

Sən demə üreyi daşdandı daşdan,
Gəldi ağlımızı çıxardı başdan,
Nə eldən utandıq, nə də ki, yaşdan
Girdi canımıza bu sevda bizim.

Dedim bu əzablar bəsimdi, bəsim,
Nə edim Tanrıya çatmadı səsim,
Daha üz tutmağa yoxdu bir kəsim
Çıxdı sonumuza bu sevda bizim.

* * *

Zaman unutdurar bizə hər şeyi
Keçmiş ömrümüzdən silinər gedər
Yaşanan sevincli,kədərli günlər
Bir parça kəfənə bürünər gedər.

Saralar günbəgün,solar bu sevgi
Aparar ağzından dadımı mənim,
Sənə baş qaxancı olar bu sevgi
Çəkməzsən heç yerdə adımı mənim.

Başlarsan qorxmağa işin sonundan
Bir səssiz ayrılıq dilərsən,gülüm.
Silərsən şəklimi telefonundan
Adımı qəlbindən silərsən,gülüm.

* * *

Sən demə sən elə hamı kimisən,
Hamının ağzının tamı kimisən,
İki vur ikinin cəmi kimisən
Mən səni bir mələk sanardım ancaq.

Çəksəm də yolunda min cəfanı hey,
Gəlməzdi dilimə şikayət, giley,
Axırda yad oldum, axırda ögey
Kaş bunu vaxtında qanardım ancaq...

Daha su aparmaz bu köhnə xəlbir
Sındırdın könlümü əğyarla əlbir,
Desələr aç danış ömrünü bir-bir
Sənli günlərimi danardım ancaq.

## Gedər

Dünya əzəl gündən saxtadır, dostum
Yalanlar,palanlar baş alıb gedər,
Dünyada tək güman bəxtədir, dostum
Bəxtsizlər gözləri yaşarıb gedər.

Kim ki, əbədiyyət güdər bu yolda
Çalışar, çarpışar hədər bu yolda,
Gözünün qarası gedər bu yolda
Cibinin parası boşalıb gedər.

Vay kimin halına dünya qac düşər,
Yadına nə xəstə, nə də ac düşər.
Yaxşının payına ehtiyac düşər
Yamanı dünyadan bac alıb gedər.

Ölüm addımlayır bizimlə birgə,
Gəzir dalımızca bir qara kölgə
Deyirik yorula,əl çəkə bəlkə
Çətin başımızdan açılıb gedər.

Ömür ki,əbədi pay verilmədi,
Ölənə,itənə say verilmədi,
Əvvəl gedənlərdən hay verilmədi
Gedənlər getmişin çağırıb gedər.

Misralar su kimi axıb gedəndə,
Könlünü yandırıb-yaxıb gedəndə,
Yar sənə qıyqacı baxıb gedəndə
Gözündə bir ümid işarıb gedər.

## Qadına

Bir gün üreyində sönərəmsə mən
Xatirəm kədərə, qəmə dönməsin.
Bir gün əhdimizdən dönərəmsə mən
Qara gözlərində fərəh sönməsin.

Səni tərk etməsin xoş arzu,dilək
Ruhunu, könlünü sıxmasın nəsə.
Tale versin sənə əzizləyərək
Bir xoşbəxt qadına nə gərəkdisə.

Əlini əlindən tutana qədər
Qovsun qabağında səadət səni.
Atmasın yüz yaşa çatana qədər
Gözəllik, zəriflik, lətafət səni.

Tanrıdan dönərək,haqqdan küsərək
İlahi bölgüdən üz döndəribdir.
Bütün afətlərdən bir az kəsərək
Gözəllik nəyi var sənə veribdir.

Səni görmək üçün açılır səhər,
Bülbüllər səninçün oxuyur, gülüm.
Düzülüb dövrənə güllər, çiçəklər
Səndən sevgi ətri qoxuyur, gülüm.

Nə qədər fərqin var bizlərlə sənin
Gün yetməz söyləsəm mən birər-birər.
Gündüz səni görən bəxtəvərlərin
Gecə yuxusuna durnalar girər.

* * *

Sənin ki, uçmağın var idi hərdən,
Al məni, ey xəyal, apar bu yerdən.

Apar dənizlərə, dağlara apar,
Başqa zamanlara, çağlara apar.

Orda sormasınlar gəlibdir hardan
Bu qərib bəndədən, hansı diyardan.

Paxıllıq, xəbislik olmasın orda,
Xoş sözə xəsislik olmasın orda.

Qəm, kədər üzlərdən silinsin, itsin,
Bütün əhvalatlar xeyirlə bitsin.

Həyat bir tamaşa coşsun, qaynasın
Baş hakim rolunu vicdan oynasın.

Şair arzuların kamını görsün,
Üzdən gülən yerdə gözdən də gülsün.

Al məni, ey xəyal, apar bu yerdən
Sənin ki, uçmağın var idi hərdən...